# Mən burdayam, İlahi!



Vaqif Bəhmənli

5 iyun 2014-cü il, axşam saat 19:00

"Azdrama" ağzına kimi dolu...

Xalq Vaqif Səmədoğlunun 75 illik yubiley təntənəsinə yığışıb.

O isə şairdən daha çox amansız ölümlə hamının əvəzinə çarpışan cəngavərə bənzəyir. Sanki hamını bir kənara itələyib, siz bu işə qarışmayın deyə yeddibaşlı xərçəngin üzərinə təkbaşına yeriyir...

O axşam şair bu qeyri-bərabər döyüşdə qalıb gələcəyinə bütün salonu inandırdı.

Hamı "Azdrama"dan arın-arxayın ayrılıb evinə döndü.

Mən də...

Bununla belə o gecənin sehri dörd ay dörd gün içimi tərk etmədi.

10 sentyabr 2014-cü il...

Hansı qələm idi o? Hansı yazı masasına çökmüşdüm? Hər sətrini bir yazıb yüz pozduğum o vərəqlər hanı? Xatırlamıram... Bəlli olan budur ki, böyük şairin taleyi kimi dağınıq və qeybdən agah olan bir ağı gözümün önündə qanad çalıb uçur.

O ağının adı da var...

## ADAŞIMA

Adın altında daha bir kəlmə görünür: Vaqif Səmədoğlunun 75 illik yubiley gecəsindən sonrakı ovqat.

*"Beşmərtəbə"ylə üzbəüz,*
*"Füzuli meydanı"nın tuşunda,*
*2014-cü il,*
*iyun ayının beşində,*
*"Azdrama"da,*
*Vaqif Səmədoğlunun*
*təntənəli yubiley axşamında*
*iki başı da düyünlü can qantelini*
*dünyanın ən yüngül*
*daşı kimi apardı Vaqif Səmədoğlu;*
*halbuki, mən*
*bundan nigaran idim...*

*Vurğun yadigarı adaşım*
*o möhtəşəm gecədə*
*çox əlamətlərə əl sürtdü,*
*toxundu çox nişanlara.*

*Bir az ağı,*
*bir az bayatı,*
*bir az da*
*həyat anlatdı*
*salona toplaşanlara...*

*Yəni ki, özünü*
*kişi kimi apardı Vaqif Səmədoğlu*
*Halbuki, mən*
*bundan nigaran idim.*

*Azarı boğazladı,*
*nitqini tarazladı,*
*fikir verdi sözlərinə,*
*Salon qorxmasın deyə*
*eynəkli gözlərini*
*gürzə kimi zillədi*
*yeddi başlı xərçəngin*
*qan çəkmiş gözlərinə*
*Halbuki, mən*
*bundan nigaran idim.*

*Yeriyirsə ürək*
*yerimək asandı, dedi,*
*Xalq artisti Fəxrəddin Manafova*
*əsamdı, dedi!*
*Yeridi ehmal-ehmal;*
*nə tez, nə gec*
*əsaya ehtiyacı olmadı heç!*
*Vaqifin yox, Manafovun*
*yıxılacağından*
*qorxdu salon...*
*uğurla bitdi son;*
*Diki endi,*
*düzü qalxdı*
*Səmədoğlu,*
*Həmişə olduğu kimi*
*səhnə pilləkənini*
*özü qalxdı Səmədoğlu*
*Halbuki, mən*
*bundan nigaran idim.*

*Yetmiş beş yaşında Səmədoğlu,*
*İsraildə,*
*dünyanın o başında Səmədoğlu*
*yuxudan halsız ayılarkən*
*gözünü üzünə zilləyən*
*Nüşabə xanıma baxıb*
*"Sevginin*
*nə*
*demək*
*olduğunu*
*anladım,"*
*dedi,*

*"Atamın*
*Azərbaycanı da*
*Nüşabə xanımın yanındaydı,*
*tək deyildi*
*o qadın"*
*dedi.*
*Halbuki, mən*
*bundan nigaran idim.*

*Nə bənzətmə, nə qafiyə...*
*Salonda*
*ayrı bir Vaqif də vardı;*
*Vaqif*
*Vaqifdi Vaqifə...*

*Adaşlar adaşlara,*
*qardaşlar qardaşlara*
*qapılar olmasa, nə olsun?*
*Təbibə yoxlatsam, məndə*
*xərçəng tapılar olmasa nə olsun?*
*Halbuki mən*
*bundan nigaran idim.*

*"Beşmərtəbə"ylə üzbəüz*
*"Füzuli meydanı"nın tuşunda*
*"Azdrama"nın ağuşunda*
*altı yüz qadın-kişini*
*Səmədoğlu azarına*
*yoluxmuş gördüm,*
*Dünyada xərçəng adında*
*cəfəngiyat yoxmuş, gördüm...*
*Halbuki, bu,*
*yatsam yuxuma da girməzdi!..*

27 yanvar 2015-ci il

Günün ikinci yarısı. İş telefonu çağırır. Nüşabə xanımın səsi... Vaqifin "Dramaturgiya" iki cildliyi çıxıb, icazə verin mətbəədən götürək, görsə yaxşıdı...

Soruşuram:

Ustad necədir?

Nüşabə xanımın səsi:

Yaxşı deyil...

Dilağız eləyib susuram. Danışıq bitir.

28 yanvar 2015-ci il, səhər saat 09:15

Nəşriyyatdan məlumat verirlər ki, Vaqif Səmədoğlunun ailəsindən gəlib kitabı apardılar. Ay Allah, heç olmasa, o gözəl kitablara əli dəysin!

28 yanvar 2015-ci il, saat 12:00

Akademiyanın iclasından çıxıb işə tələsirəm. Hansısa bir xəbər saytından zəng gəlir. Tanıdığım jurnalist:

Vaqif müəllim, Vaqif müəllimin dəfni harada olacaq? - soruşur.

Hansı Vaqif müəllimin?

Eşitməmisiniz, Vaqif Səmədoğlu rəhmətə gedib.

... Telefon əlimdən düşür.

... Yerin üzü daşdır.

... Telefon sınmır, elə bil yerin təkindən səs gəlir.

... Sayt müxbiri hələ də nəsə soruşur.

29 yanvar 2015-ci il saat....

Azdramanın qapısı ağzına çatdım.

Həmişə o bura özü gələrdi.

Bu dəfə onu bura gətiriblər.

Kimsə çağırır: - Mən burdayam, İlahi

Mən hay verirəm:

Qorxma, qardaş, biz də burdayıq...